Azərbaycan Respublikasının
Kənd Təsərrüfatı Nazirliyi

Aqrar Xidmətlər
Agentliyi

# Aqrar Təlim Mərkəzi



## Şəkər çuğunduru bitkisinin becərilməsi üzrə təqvim planı

www.axa.gov.az

# Şəkər çuğunduru bitkisinin becərilməsi üzrə təqvim planı

## Yanvar



Toxum və mineral gübrələr (hektara təsiredici maddə hesabı ilə $N_{140}P_{150}K_{100}$) tədarük olunur. Toxumlar cilalanmış, kalibirlənmiş, qidalı maddələrlə zənginləşdirilmiş, kompleks xəstəliklərə qarşı dərmanlanmış və mikroelementlərlə işlənmiş formada olmalıdır.

## Fevral



Sahəyə fosfor və kalium gübrələri ilə yanaşı azotun 30 %-i verilməli, müşahidə edilən alaq otlarına qarşı herbisidlər tətbiq edilməli, dırmıq və fırlanan (rotasiya) mala ilə tarla əkinə hazır vəziyyətə gətirilməli, toxum yatağı (torpağın üst 4-5 sm-lik təbəqəsi) daş-kəsək və bitki qalıqlarından təmizlənməlidir.

## Mart



Torpaqda temperatur +5-8 $^{0}$C olduqda əkinə başlanılır. Toxumlar cərgəarası 60 yaxud 70 sm, bitki araları 25-30 sm, ağır torpaqlarda 2-3 sm, yüngül torpaqlarda isə 4-5 sm dərinlikdə basdırılır. Hər hektara səpin norması 8-10 kq, dəqiq səpinlərdə isə 6 kq təşkil edir.

## Aprel



1-ci ongünlükdə əkin başa çatdırılmalıdır. Əkindən sonra suvarma arxları açılır, əsas yarpaq əmələ gəldikdən sonra bitkilərin dibləri doldurulur, sahədə bitki arası məsafə 16-18 sm olmaqla seyrəltmə aparılır. Cərgə araları yumşaldılır, alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilir.

## May



Azot gübrəsinin 35 %-i yemləmə şəklində verilməklə 6-8 sm dərinlikdə kultivasiya edilir və sahələr suvarılır. Xəstəlik, zərərverici və alaq otları ilə bağlı müşahidə və mübarizə tədbirləri həyata keçirilir. Kultivasiya aparılır və yemləmə gübrələrinin qalan hissəsinin 3 dəfəyə verilməsi təmin edilir.

## İyun



Xəstəlik, zərərverici və alaq otları ilə bağlı müşahidə və mübarizə tədbirləri davam etdirilir. Havanın temperaturu nəzərə alınmaqla 12-15 gündən bir suvarma aparılır. Suvarmada müxtəlif suvarma üsullarından (şırımla, yağış yağdırma, pivot və s. ) istifadə oluna bilir.

## İyul



Suvarma, gübrələmə, kultivasiya və bitki mühafizəsi tədbirləri davam etdirilir. Sahələr 800-1000 $m^3$/ha suvarma norması suvarılır. Növbəti ildə şəkər çuğunduru əkiləcək sahələr seçilir, bu sahələr 12-14 sm dərinlikdə üzlənir. Alaqların cücərməsi üçün üzləmədən sonra sahədə 600-700 $m^3$/ha həcmində aldadıcı suvarmalar aparılır.

## Avqust



Zərərli orqanizmlərə qarşı bitki mühafizə tədbirləri davam etdirilir. Havaların daha isti keçdiyi vaxtlarda suvarmanın gecə saatlarında aparılması tövsiyə olunur. Növbəti ildə şəkər çuğunduru əkiləcək sahələr şumlanır.

## Sentyabr



Məhsul yığımına hazırlıq işlərinə başlanılır. Yığımın forması müəyyənləşdirilir. Yığım texnikaları, anbar və xırmanlar məhsul yığımına hazırlanır.

## Oktyabr



Məhsul yığımına başlanılır. Yığım texniki yetişkənlik dövründə aparılır. Tarlada yaşıl yarpaqlı sahələr müşahidə olunarsa yığım gecikdirilir. Saxlanma yerlərində texniki zədələnmiş çuğundurların tığlara yığılmasına yol verilmir.

## Noyabr



Məhsul yığıldıqdan sonra sahə əkin dövriyyəsinə uyğun əkiləcək növbəti bitki üçün hazırlanır. Şəkər çuğunduru qarğıdalı, darı və dənli-paxlalılar üçün yaxşı sələf hesab edilir. Şəkər çuğunduru öz tarlasına yalnız 3-4 ildən sonra qaytarıla bilər. Çuğundur əkiləcək sahələrə əsas şum altına 30 ton çürümüş peyin verilməklə 27-30 sm dərinlikdə şum aparılır.

## Dekabr



Aqrotexniki tədbirlər davam etdirilir. Şum başa çatdıqdan sonra, hər hektar sahə 1000-1200 m3 su ilə  arata qoyulmalıdır. Bu tədbir torpaqda nəmlik ehtiyatının yaradılması ilə yanaşı zərərverici və gəmiricilərin də məhv edilməsinə səbəb olur.



# Şəkər çuğunduru bitkisinin mühafizə sxemi

| Zərərli orqanizmlər | Əkindən əvvəl | Əkin | Çıxış | Ləpə yarpağının çıxışı | 2 əsl yarpaq | 4 əsl yarpaq | 6 əsl yarpaq | 8 əsl yarpaq | 50% cərgələr birləşəndə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Uzunburun böcək | İmidokloprid 500q/l 0,8-,1,0 litr/t (toxum) | | | | | | | | |
| Mənənə, çuğundur bağacığı, çuğundur milçəyi, çəmən kəpənəyi, payızlıq əkin sovkası | | | Cypermethrin 250 q/l 0,48 l/ha | | | | | | |
| Çuğundur birəciyi | Lamda-cyhalothrin 50q/l 0,1-0,15 l/ha | | | | | | | | |
| Kök çürüməsi, fomoz, peronosporoz, serkosporoz, toxumların kiflənməsi | Thiram 10 kq/ton, Fundazol 500 q/kq – 3,0 kq/ton toxum | | Fundazol 500 q/kq 0,6-0,8 kq/ha | | | | | | |
| Unlu şeh, serkosporoz, fomoz | | | | | Propiconazole 250q/l+Cyproconazole 80 q/l – 0,5-0,7 l/ha | | | | |
| Birillik birləpəlilər və bəzi ikiləpəli alaqlar | Glyphosate 500 q/l 3,0-4,0 l/ha | | | | Clopiralid 750 q/kq 0,04-0,1 kq/ha | | | | |
| Birillik və çoxillik ikiləpəli alaqlar | | | Quizalofop-P-ethyl 1,0-3,0 l/ha | | | | | | |

